BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Humanitar elmlər seriyası 2010

# XƏZƏRLƏR CƏNUBİ QAFQAZDA

**X.İ.İLYASOVA**
***Gəncə Dövlət Universiteti***
***xatire_ilyasova@mail.ru***

*Xəzərlərin tarixində ən önəmli mərhələlərdən biri də onların Cənubi Qafqaza yürüşləridir. Bu, bir tərəfdən, xəzərlərin tarixini, digər tərəfdən isə, Cənubi Qafqaz, o cümlədən Azərbaycanın o dövrkü tarixini öyrənmək üçün çox əhəmiyyətlidir. Burada xəzərlərin Cənubi Qafqaza yürüşlərinin səbəbləri, yürüş zamanı istifadə etdiyi yollar və bu dövrdə Cənubi Qafqazda ictimai-siyasi vəziyyət və s. bu kimi məsələlər qısa şəkildə öz əksini tapmışdır.*

589-cu ildə Bizans və Türküt xaqanlığının xəzərlərin də iştirak etdiyi birgə səyləri ilə İranı işğal etmə cəhdlərinin uğursuzluğundan sonra xəzərlər haqqında təxminən 35 il tarixə heç bir şey məlum deyil. Çinlə ağır döyüş, teleslilərin üsyanı, dövlətin müstəqil dövlətlərə parçalanması, daxili çəkişmələr – bütün bunlar türkütləri zəiflətdi və onların diqqətini qərbdən çəkdi. Bəhram Çubinin üsyanı və şah Xosrov II Pərvizin Bizansa qaçması Bizansın İranın işlərinə qarışmasına zəmin yaratdı. İran şahlarının taxtında oturmaq üçün kömək müqabilində Xosrov Pərviz Bizansa bu dövlətlər arasındakı müharibəyə səbəb olan bütün torpaqları verdi. Göycə gölü və Dvindən Tiflisə qədər bütün qərbi Cənubi Qafqaz Bizansın hakimiyyəti altına düşdü. Lakin bu torpaqlar Bizansda da uzun müddət qalmadı. Üsyan qaldıran ordu xalq hərəkatına söykənərək Mavrikiyanı devirdi və yüzbaşı Fokunu taxta çıxartdı (602-ci ildə). Lakin narazılıq və narahatlıq buna imkan vermədi və daxili çəkişmələrə xarici çəkişmələr də əlavə olundu. Bəhram Çubin üzərindəki qələbəsinə görə Mavrikiyaya borclu olan Xosrov Pərviz öz növbəsində qəsbkar Fokiyə qarşı çıxdı və Bizans vilayətlərinin işğalına başladı (1, 4-12).

Kuşanların İran cəbhəsində 603-cü ildə üsyanı müəyyən qədər İranın çıxışını ləngitdi. Bütün İran ordusu Bizans sərhədində təmərküzləşdiyindən Xosrov Pərviz onu başqalarına həvalə etdi, lakin kuşanların köməyinə türkütlər gəldi və İranı Rey və İsfahana qədər boşaltdı. Lakin onlar öz uğurlarını davam etdirmədən tez getdilər, belə ki, türküt xaqanlığında daxili işlər yeni işğallarla uzun müddət məşğul olmağa imkan vermirdi.

İranın Bizansa hücumu uğurla inkişaf etdi və 610-cu ildə imperiya taxtına Bizans aristokratiyasının adamı İrakli sahib olduqda vəziyyət dəyişmədi. 611-ci ildə Antioxiya, 614-cü ildə Yerusəlim, 619-cu ildə İskəndəriyyə təslim oldu: farslar Bosfora qədər gəldilər və Xalkedonu tutdular. 622-ci ildə onlar Kiçik Asiyada Rodos və Ankirunu tutdular. Bizansın qərb düşmənləri də fəallaşdılar. 617-ci ildə avarlar çoxlu sayda kutriqur və slavyan dəstələrinin başında Konstantinopola daxil oldular.

İmperiyanın xəzinəsinin sonuncu vəsaitləri onları almağa xərcləndi. İmperiya çökmək ərəfəsində idi, lakin o, düşmənləri üzərində qələbə çalmağa güc tapa bildi (2,143). İlk baxışdan çıxılmaz vəziyyətdə olduğu görünən imperator İrakli cəsarətli tədbirə əl atdı – düşməni pərakəndə hala salmaq və onun diqqətini imperiya mərkəzindən yayındırmaq məqsədilə İranı parçalamağa və daxili iğtişaşlar yaratmağa əl atdı. 622-ci ildə imperator İrakli paytaxtı öz oğlu və senatın öhdəsinə buraxaraq Kappadokiyaya yollandı və burada farsları məğlubiyyətə uğratdı. Pontda qışlayıb sonra Naxçıvanı işğal etdi. Farslar gözləmədəyi halda Arazı keçən İraklinin qoşunu Atropatenaya soxuldu və bu vilayətin paytaxtı Qanzaka getdi. Şəhər hücumla alındı və orada yerləşən atəşgah dağıdıldı. Qəfil hücum nəticəsində yaranmış təşvişdən ayılan şahənşah (şahlar şahı – İran şahlarının titulu) qüvvələri cəmlədi və İraklinin qoşununu sıxışdırmağa başladı. İraklinin qoşunu geri çəkilməyə məcbur oldu. Şimala hərəkət edən İrakli Albaniyaya soxuldu və bu ölkənin paytaxtı Partavı tutdu və qışı elə burada da keçirdi. 624-cü ildə müharibə Albaniyada davam etdi. Lakin farslar ona müqavimət göstərdilər və İrakli Syuniya vasitəsilə Göycə gölü ətrafında yerləşən rayona çıxdı, oradan isə farslar tərəfindən təqib olunaraq Kiçik Asiyaya qayıtdı və Pontda 625-626-cı ilin qışını keçirtdi (3, 144).

İrana ilk yürüşün uğursuzluğu İraklini müttəfiq axtarmaq məqsədilə Bizansın köhnə dostları – türkütlərə (xəzərlərə) müraciət etməyə məcbur etdi. Bununla bağlı olaraq, Bizans mənbələrində xəzərlər haqqında ilk qeydlər meydana gəlir. Feofanın «Xronoqrafiyasında» məlumat verilir ki, imperator İrakli xəzərlər adlanan şərqi türklərlə ittifaq bağladı. Bu tipli məlumatlara Musa Kalankatlının «Alban tarixi» əsərində də rast gəlinir. Bu əsərə yunan-fars müharibəsinin müasiri alban arxiyepiskopu Viro haqqında rəvayət də daxil edilmişdir. Burada həmin müharibədə Bizans tərəfində çıxış edən Türküt (xəzər) ordusunun əsas qüvvəsini təşkil edən xəzərlər haqqında maraqlı məlumatlar öz əksini tapmışdır. Bu mənbənin verdiyi məlumatlara görə, İraklinin elçisi Andrey qızılsevən xalqın tamahını oyada bildi və şimal şahı Cebu xaqanın (yabqu-xaqan) canişinini Bizansa kömək etməyə razı saldı. Müqaviləni təsdiq etmək üçün Andreylə birlikdə cavab göndərildi və o, 1000 seçmə süvari ilə Dərbəndi keçib yoluna çıxan hər şeyi dağıdaraq Kürə çatdı (2, 145).

Müqavilə bağlandı və hələ həmin 626-cı ilin sonunda «şimal şahı» İrana qarşı öz qardaşı oğlunun – Şadın başçılığı altında qoşun göndərdi. O, Albaniya və Atropatenaya daxil oldu, böyük dağıntılar törətdi və çoxlu əsir tutdu. Şad Araz çayının sahilində dayandı və oradan Xosrov Pərvizə imperator İrakli ilə türkütlərin ittifaqı haqqında məlumat və farslar tərəfindən tutulmuş Bizans vilayətlərini boşaltmaq və bütün əsirləri qaytarmaq tələbi ilə səfir göndərdi. Fars şahı buna cavab olaraq hər şeydən əvvəl İranın türkütlərlə qədim dostluq münasibətləri və hakim ailələri arasında nigah əlaqələrini xatırlatdı. Məlumdur ki, Xosrov Ənuşirəvan xaqan İstəminin qızı ilə evlənmişdi. O, yalnız Şadı öz dövlətindən qovmaqla deyil, həm də xaqanın özünün torpaqlarına hücum etməklə hədələdi.

Şad tərəfindən Cənubi Qafqaza yürüşdən əldə etdiyi, tərkibində əsir, mal-qara, qızıl, qab-qacaq, qiymətli libaslar olan böyük qənimət yabqu-xaqanın tamahını o qədər oyatdı ki, o özü farslara qarşı hərəkət etmək qərarına gəldi. Buna görə o, tabeliyində olan bütün tayfa və xalqlara hazırlaşmağı və silahlanmağı əmr etdi.

Türkütlərin Cənubi Qafqaza ilk yürüşü, çox güman ki, İranın diqqətini Bizansdan yayındırmaq və İrakliyə yeni müttəfiqi ilə birlikdə müharibəni bərpa etməyə hazır-

laşmaq imkanı vermək məqsədi güdürdü. Bu vəzifə, sonrakı hadisələrin gedişindən göründüyü kimi, yerinə yetirildi. İrakli qoşun topladı və yenə zərbələr endirməyə hazırlaşdı.

627-ci ildə Cebu xaqan Şadla birlikdə saysız-hesabsız qoşunun başında yürüşə başladı. «Şimal şahı» və «Böyük xaqan», yəni o dövrdə qərbi türkütlərin xaqanı Tun-şexu idi. 616-cı ildə öz qardaşı Şequnun ölümündən sonra o, xaqan oldu (4, 283). Ondan sonra ikinci şəxs və ya canişin – Cebu və Yabqu – xaqan onun qardaşı idi, o da böyük xaqanın qardaşı oğlu – Şadın atası idi. Yabqu və Şad – Türküt xaqanlığının yüksək əyanlarının titulları idi. İraklinin köməyi ilə gedən türküt qoşununun başında dayanan bu titullara uyğun şəxs adları məlum deyil, dolayısı məlumatlara istinadən güman etmək olar ki, Yabqu-xaqan Tun-şexunun kiçik qardaşı – Moho-Şad idi. O, 618-626-cı illər arasında Türküt səfiri kimi Çinə getmişdi. Onun haqqında daha heç bir məlumat yoxdur. Lakin fərz etmək olar ki, o, xaqanın ən yaxın qohumu kimi Yabqu titulunu almış və Çin tarixşünaslığının diqqətindən kənarda qalmış Türküt dövlətinin qərb vilayətlərini idarə edirdi. Onun üç oğlu vardı: Nişu, Tunva və Buli (2, 147) Cənubi Qafqazda döyüşən Şadın gəncliyindən məlum olur ki, bu Moxo-Şadın kiçik oğlu Buli-Şad idi.

Türkütlərin qoşunu birinci növbədə Dərbəndə hücum etdi. Alban tarixində deyilir: «Yırğalanan dənizin dalğaları kimi türkütlər Çora şəhərinə (Dərbənd) hücum etdilər və onu yerlə-yeksan etdilər». Paytaxt Partava qaçmış Alban sakinlərini Çora haqqında deyilənlərdən dəhşət bürümüşdü. Dəhşətli düşmənin zülmünə müqavimət göstərməyə ümidi olmayan sakinlər öz var-dövlətini qoyub xilas olmaq üçün Artsax (Qarabağ) dağlarına qaçdılar. Türkütlər qaçanların bir hissəsini Kalankatuyk kəndi yaxınlığında dağ ətəyində yaxaladılar (2, 105-106). Albaniyanı dağıdandan sonra türkütlər İberiyaya yönəldilər və Tiflis şəhərini mühasirəyə aldılar və bura öz qoşunu ilə Bizans imperatoru gəldi. Bundan əvvəl o öz müttəfiqlərini Lazikdə gözləyirdi. Məhz bu dövrdə Tiflis yaxınlığında İraklinin Yabqu-xaqanla görüşü oldu ki, bu barədə Bizans yazıçıları məlumat verirlər. Yunan müəlliflərinin Ziyevil adlandırdıqları Türküt başçısı, yəni Feofanın sözlərinə görə Yabqu imperator İrakliyə yaxınlaşdı, onun çiynindən öpərək qarşısında baş əydi, türküt qoşunu da digər xalqlar üçün onun qeyri-adi şərəfinə ehtiram edərək imperatorun qarşısında diz çökdü, lakin bu adət xəzərlər üçün adi idi. Yabqu imperatora öz oğlu Şadı təqdim etdi. Bu görüş haqqında tam təfsilatı ilə Nikifor danışır. İrakli, onun sözlərinə görə, türküt başçısını qucaqladı, onu öz oğlu adlandırdı və öz tacını onun başına qoydu. Sonra təmtəraqlı məclis quruldu və bundan sonra türküt başçısına məclis süfrəsinin qiymətli qab-qacağını, o cümlədən çar geyimləri və qiymətli daş-qaşlarla sırğalar bağışladı. İmperator Yabqu-xaqana öz qızı Yevdokinin şəklini göstərdi və türkütlər farsları məğlub etməkdə onlara kömək edəcəyi təqdirdə qızını ona ərə verəcəyinə söz verdi (5, 358).

Şimaldan türkütlər və qərbdən Bizansın çoxsaylı qoşunu və güclü silahlarına baxmayaraq Tiflisin mühasirəsi uğursuzluqla nəticələndi, şəhəri almaq mümkün olmadı, belə ki, onun müdafiəçiləri təslim olmurdular. Farslar şəhərə 1000 seçmə döyüşçü sala bildilər və onlarla birlikdə cəsur və istedadlı sərkərdə Şarqakaq da getdi. İki ay uğursuz mühasirədən sonra Türküt və Bizans qoşunu yoruldu və itkilərlə zəiflədi. Digər tərəfdən, qış fəsli də gəldi. «Alban tarixi» əsərində deyilir ki, İrakli xəzər qoşununu buraxdı və şərt kəsdi ki, o, gələn il isti aylardan sonra, yəni payızda Persiyaya (İrana) qarşı birgə əməliyyatı davam etdirmək üçün qayıtsınlar. O özü də şəhərin mühasirəsini dayandırmaq qərarına gəldi (2, 105-106). Yabqu imperatora öz

oğlunun rəhbərliyi altında olan 40 minlik qoşun verərək qalan ordu ilə öz torpaqlarına qayıtdı. Tiflisin mühasirəsini Kaxetiya erismtavarı Adernazeyə tapşırıb və beləliklə arxa cəbhəni təmin edən İrakli düşmən üçün gözlənilmədən Persiyanın daxilinə yollandı. Sürətlə Arazı keçib Assuriyaya daxil oldu. Yolda onu, Feofanın sözlərinə görə, çətinliklərə dözə bilməyən köməkçi türküt ordusu tərk etdi (2, 106). Lakin bu da İraklini dayandırmadı. Yolda qarşısına çıxan hər şeyi dağıdaraq imperiya ordusu dayanmadan Persiyanın düz mərkəzinə gedirdi. 1 dekabr 627-ci il tarixində İrakli ordusu Böyük Zabı keçib Ninəva yaxınlığında məskunlaşdı. Burada o vaxta qədər uğursuzluqla Bizans ordusunu təqib etmiş farslar ona çatdı. 12 dekabrda qəti döyüş baş verdi və farslar məğlub edildilər. Bundan sonra İrakli Persiyanın paytaxtı Ktesifona yollandı. Yolda şah iqamətgahı Dastagerdi tutaraq dağıdan İrakli Ktesifon yaxınlığında dayandı. Burada onun yolunu fars qoşunu kəsdi. Hərbçi bəxtini döyüşdə yenə sınamağa cəhd etməyən İrakli geri çəkilmək qərarına gəldi və Atropatenanın Qazaka şəhərinə yollandı. Belə görünürdü ki, sanki hər şey itirilmiş, heç bir şey əldə edilməmişdi və 624-cü il təkrar olunurdu (o ildə İrakli fars torpaqlarının dərinliklərinə getmiş və çox çətinliklə düşmən mühasirəsindən xilas olmuşdu). Lakin bu dəfə xoşbəxtlik onun üzünə güldü. Yolda olarkən İrakli xəbər aldı ki, Persiyada saray çevrilişi baş vermişdir. Xosrov Pərviz öldürülmüşdü, onun oğlu Qubad Şiruye dərhal İrakli ilə sülh danışıqlarına başladı, 3 aprel 628-ci ildə onların arasında sülh müqaviləsi bağlandı (6, 149). Lakin türkütlərin İranla müharibəsi bununla başa çatmadı. İranla Bizans arasında müqavilə bağlandıqdan sonra alban mülkədarlarının üsyanında iştirak etdiyinə görə 25 il fars sarayında saxlanılan alban katolikosu Viros Qubad tərəfindən azad edildi və o, vətəninə qayıtdı, yabqu-xaqan şad və böyük ordu ilə birlikdə İrakliyə verilən sözə uyğun olaraq Tiflisdən qayıdarkən yenə Cənubi Qafqazda göründü. Birinci növbədə türkütlər Tiflisə qarşı yönəldilər. İki ay şəhər sakinləri düşmənə müqavimət göstərdilər və nəhayət, türkütlər böyük hücum etmək qərarına gəldilər.

Gürcü salnamələri də xəzərlərin Tiflisə yürüşü haqqında məlumat verir. Tiflisdən gedərkən İrakli Kaxetiyanın eristavı Adernazeni Gürcüstanın mtavarı təyin etdi və ona Tiflisi verdi. Yabqu Tiflis qalasını tutub, onun başçısını əsir aldıqda dərisini soydular və onu İrakliyə Qardabana göndərdi. Mtavar Stefan bu şəkildə öldürüldü. Salnaməçi yazır ki, allah Stefanı xristianların düşməni kafirlərin dostu olduğuna görə cəzalandırdı (2, 107).

Tiflisdə böyük qənimət ələ keçirən Yabqu-xaqan öz ölkəsinə qayıtdı, oğlu şada isə qoşunla Albaniyanı fəth etməyi tapşırdı və əmr etdi ki, bu ölkənin hakimi və rəhbərləri könüllü tabe olmadıqda şəhərləri, qalaları və ticarəti təslim etmədikdə yalnız qadınları və 15 yaşa qədər uşaqları sağ qoysunlar və onları da qula çevirsinlər. Türküt-Bizans müqaviləsinə əsasən Gürcüstan Bizansın hakimiyyəti altına keçməli və şərqi Cənubi Qafqaz isə xana verilməli idi. Yabqu-xaqan bu müqaviləyə uyğun olaraq hərəkət edirdi. O, Gürcüstanı təmizlədi və Şada Albaniyanı tabe etməyi həvalə etdi. Albaniyaya daxil olarkən Şad fars canişini (mərzban) və katolikos Viroya tabe olmaq tələbi ilə elçilər göndərdi. Fars canişini qaçdı, katolikos isə cavabı ləngitdi. Xəyanətdə ittiham edilməkdən ehtiyat edən katolikos məktubla fars şahına müraciət etdi və məktubda dost olmayan şəxslə danışıqlar aparmaq üçün icazə istədi. Şad tabeliyə silah yolu ilə nail olmaq qərarına gəldi. Onun qoşunları əvvəlcədən hazırlanmış plana uyğun olaraq ölkəni sistemli şəkildə dağıtmağa başladılar. Onun dəstələri eyni zamanda müxtəlif yerlərdə göründü. Əvvəlcədən satın alınmış türküt elçiləri tərəfindən xəbərdar edilən katolikos Viro (Kaqdarak kəndində idi) yanında olan bütün kilsə

əşyalarını qoyub Artsax (Qarabağ) dağlarına qaçdı və Çaraberd qalasında gizləndi. Burada da Şad tərəfindən zorla onu özləri ilə aparmaq niyyəti ilə elçilər gəldi. Bu zaman katolikos həmin qalada olan bütün məsul şəxsləri toplayıb onların qarşısında məsələ qoydu. Türkütlərə müqavimət göstərmək və ya onlara tabe olmaq məsələsini uzatmamaq qərarına gələn Viro hədiyyələr topladı və Şadın qərargahına yollandı. Şadın qərargahı Albaniyanın paytaxtı Partav şəhərinin yaxınlığında idi (2,151). Kür çayının sağ sahili boyunca uzanan Uti vilayətində Urdi düzənliyində dağlı vadilərdən çıxarkən yolçular «Alban tarixi»ndə deyilənlərə görə, onlara tanış olan yeri tanımadılar, çünki şadın çoxlu sayda ordusu bu ərazini tanınmaz hala salmışdı. Vironu burada İran mədəniyyəti üçün ənənəvi olan sağər və digər xidmətçilərlə süfrə mərasiminin olmaması xüsusilə təəccübləndirdi: hətta Şadın da xidmətçisi yox idi. Görünür, türkütlər ev məişətində əsir-qulların əməyindən istifadə etmirdilər, onları başqa cür işlədirdilər – qonşularına satır və ya da əsir çinlilərdə olduğu kimi torpağa basdırır və onları qalaya çevirirdilər. Vironu onun müşayiətçiləri ilə birlikdə birinci keşikçidən ikinciyə qədər apardılar və burada Şadın çadırına girişdə onları üç dəfə yerə qədər əyilməyə məcbur etdilər, sonra isə yoldaşlarını qapıda saxlayaraq yalnız katolikosu şahzadənin oturduğu çadırın içərisinə apardılar. Onların qarşısına gələn kateolikom yerə qədər təzim etdikdən sonra ona və bütün əyanlara hədiyyələri təqdim etdi. Şad mərhəmətlə tabe olması haqqında müraciətini və Sasanilərə qulluq etdiyi kimi qulluq edəcəyi haqqında vədini qəbul etdi. Vironu ləngimədə məzəmmət etdi: "əgər ləngiməsəydin sənin ölkənə mənim qoşunum tərəfindən fəlakət gəlməzdi" və tələb etdi ki, albanlar öz evlərinə, işlərinə qayıtsınlar. O, söz verdi ki, ölkəni qarət etməyi dayandıracaq və hücumlarını qonşu ölkələrə edəcək və onlardan gələn gəlirlə Albaniyanın insan və mal itkisini bərpa edəcək. Çünki Şad öz nitqini başa çatdırdı, atam bu üç ölkəni – Albaniya, Çora və Lbiniyanı – əbədi olaraq aldı (Çora – Dərbənd, Lbiniya – dağlıq Qafqazın cənub-şərq hissəsi).

Katolikosu və onun yoldaşlarını qonaq edərkən türkütləri çöməlmiş vəziyyətdə oturtdular və onların qarşısına içərisində ət olan qablar qoydular, lakin onlar oruc tutduqlarını bəhanə edərək yeməkdən imtina etdilər. Bu zaman onlara tavada qızardılmış nazik çörəklər təqdim etdilər. Partav şəhərində öz evində olarkən və tez-tez köç və ya oturaq zamanı türkütlərə baş çəkərkən katolikos şaddan əsir tutulmuş albanları buraxmağı xahiş etdi. Şad öz döyüşçülərinə əsirləri azad etmək haqda əmr verdi və onlardan kimisə ciddi cəza qorxusu altında saxlamağı və ya gizlətməyi qadağan etdi. Bununla yanaşı, tidiyün (tiun) adlanan əsilzadələri katolikosun xidmətçiləri ilə birlikdə göndərdi və onlar düşərgələrə daxil olaraq çadır və şatralarda axtarış aparır və burada mal-qara arasında və ya başqa yerdə gizlədilən gənc insanları çıxardırdılar və heç kim onlara müqavimət göstərməyə cəhd etmirdi (7, 153).

Ölkənin türkütlər tərəfindən dağılmasının ardınca Albaniyanı dəhşətli aclıq bürüdü və bununla bağlı olaraq «Alban tarixi» əsəri aclığı düşmən hücumları ilə deyil, siçanların hücumu ilə əlaqələndirir. «Siçanlar bütün otları yeyib, bütün tarlamızın məhsulunu məhv etdilər». Çox güman ki, bunlar siçan deyil, çəyirtkələr idi. Aclıq qurtaranda tam qüvvə ilə türkütlərin ağalığı başlandı. Şimal knyazı getdikcə daha çox güclənirdi və bütün əraziyə dəhşətli qorxu yaymışdı. O, qızıl, gümüş, dəmir və mis məmulatları əldə etməkdə bacarığı olan bütün sənətkarlara nəzarət etmək üçün adamlar göndərirdi. Daşınan mallardan, Kür və Araz çaylarında balıqçılıqdan vergi yığır və bununla yanaşı, hətta fars şahlığının adi yazışması üzrə didrahma da tələb edirdi.

Bununla da «Alban tarixi»nin türkütlərin Cənubi Qafqazda olmaları haqqında müfəssəl rəvayəti sona çatır və sonradan bu məsələlərə yalnız müəyyən işarələr edilir. Şimalın knyazı (bu mənbədə deyilir) öz oğullarına qarşı yönəldi. Çin mənbələrində deyilir ki, 630-cu ildə Qərbi türküt xaqanlığında daxili müharibə yenidən baş qaldırdı.

Bu il türkütlər üçün həyati bir il idi. Şərqi türküt xaqanlığı Tan imperiyası tərəfindən dağıdıldı, şimal knyazı isə, qərbi türküt xaqanı öz tabeliyində olanların narazılığına səbəb olduğu üçün, Tun-şahu qəddar və zülmkar olduğuna görə əmisi Mohadu tərəfindən öldürüldü və sonra o özü taxta çıxdı, lakin tezliklə 631-ci ildə hakimiyyətə yeni iddiaçı ilə döyüşdə öldürüldü (3, 220). Türkütlər yaranmış belə bir vəziyyətdə Albaniyada qala bilməzdilər. Sonuncu sasani şahı III Yezdəgirdin (632-652) dövrünə qədər Albaniya yenə İranın tabeliyində idi, bununla yanaşı, onun uğrunda türkütlərlə mübarizə haqqında heç bir məlumat yoxdur. Görünür, türkütlər öz ölkələrində daxili müharibənin başlanması haqqında eşidib tələsik Cənubi Qafqazı tərk etmişdilər. Yabqu-xaqan Moho-Şad öz qardaşına kömək etmək üçün tələsəndə öldürüldü. Bu barədə Alban tarixi və Nikiforun məlumatı xəbər verir. Sonuncunun verdiyi məlumata görə, 631-ci ildə xaqana ərə getmək üçün yollanmış İraklnin qızı Yevdokiya yoldan qayıtdı, sonradan məlum oldu ki, onun nişanlısı ölmüşdü. Moho-Şadın oğulları daxili mübarizədə fəal iştirak edirdilər və iki böyük oğlu hətta qısa müddətə bir-birinin ardınca xaqan da ola bildi. İraklinin İranla müharibədə Qərbi türküt xaqanlığı ilə ittifaq bağladığına heç bir şübhə ola bilməz. Onun müttəfiqlərini Bizans mənbələri xəzərlər adlandırırlar (8).

## ƏDƏBİYYAT


1. Кулаковский Ю. История Византии. В 3-х т. Т.1, Киев: 1913, 552 с.
2. Артамонов М.И. История хазар, Л.: Эрмитаж, 1962, 523 с.
3. Гумилев Л. Открытие Хазарии. М.: Айрис, 2007, 412 с.
4. Бичурин Н.Я. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. В 3-х т. Т.1. Л.: 1950, 471 с.
5. Никифора патриарха Константинопольского. Краткая история со времени после царствования Маврикия. Перевод Е.Э. Липшиц. 1950, 387 с.
6. Ковалевская В.Б. Кавказ и аланы. М.: Наука, 1984, 290.
7. Brok, Kevin Alan. Bir Türk İmperatorluğu: Hazar Yahudileri, Nokta Kitab, İstanbul: 2005, 480 c.
8. Плетнева С.А. Хазары, евреи и славяне. В 16-ти т. Т. XVI, ”Хазары и Хазарский каганат” Иерусалим: Гешарим. Мосты культуры 2005, 568 с.


## ХАЗАРЫ НА ЮЖНОМ КАВКАЗЕ


### Х.И.ИЛЬЯСОВА


### РЕЗЮМЕ


В истории хазарских племен одним из важных этапов является их набеги на Южный Кавказ. Это имеет исключительное значение как для изучения истории хазарских племен, так и для изучения истории Южного Кавказа, в том числе Азербайджана соответствующего периода. В статье нашло отражение причины походов хазар на Южный Кавказ, дано описание использованных во время набегов путей, а также дана характеристика общественно-политического положения того времени и тому подобные вопросы.



Ключевые слова: каган, уабку, туркут, шад, летопись.

## KHAZARS IN THE SOUTH CAUCASUS

**Kh.I.ILYASOVA**

**SUMMARY**

One of the most important stages in the history of the Khazars is their marches to the South Caucasus. This is important to learn the history of the Khazars and the South Caucasus, including the history of Azerbaijan of that time. The article deals with the study of the reasons for Khazars marches to the South Caucasus, the ways that they used during their marches and the social-political situation in the South Caucasus at that time.

Key words: Khakan, yabku, turkut, shad, chronicle.